# İNŞAATDA İNQİLAB – "MƏTANƏT A"NIN "FASNATURAL" MƏHSULU

Yay yalnız istirahət deyil, həm də tikinti işləri üçün ən əlverişli dövr hesab olunur. İstirahətini təmir-tikinti işlərinə dəyişənlər isə,təbii ki, ilk növbədə keyfiyyətli və sərfəli məhsul axtarışına çıxırlar. Ən çox müraciət etdikləri ünvanlardan biri də "Mətanət A" şirkəti, bu şirkətin yüksək keyfiyyətli məhsulları olur. Belə məhsullardan biri şirkətin respublikamız da daxil olmaqla dünyanın 150-dən çox ölkəsində patentləşdirilmiş, inşaatda inqilab hesab edilən ağlay əsaslı FasNaturalməhsuludur. FasNatural 2011-ci ildə "İlin ixtirası" nominasiyasında "Uğur" milli mükafatına layiq görülüb.

Əhəngdaşı əsaslı FasNatural məhsulundan fasadda dekorativ üzlük plitələrin, bəzək məmulatlarının, eləcə də izolyasiya lövhələrinin üzərinə çəkilməklə paduqaların hazırlanmasında istifadə olunur. Məlumdur ki, evlərin, binaların, hasarların üzlənməsində ağlay daşdan geniş istifadə olunur. FasNatural məhsulunun istehsalında ağlay daşından əsas xammal kimi istifadə edilir və nəticədə ağlay daşla müqayisədə bir çox üstünlüklərə malik yeni məhsul əldə olunur. Daxili və xarici məkanlarda, üzlük, blok, bəzək, arxitektur elementlərinin hazırlanmasında istifadə olunmaqla yanaşı, FasNatural məhsulu həmçinin döşəmədə, tavanda, balkonlarda rütubətə məruz qalan müxtəlif sahələrdə, arxitektur binaların restavrasiyasında istifadə edilir. FasNatural məhsulu, həmçinin sərt küləkli və soyuq regionlarda binanın yükünü azaltmaq üçün, ən mürəkkəb arxitektur və bəzək işlərində, dəyişkən iqlimli məkanlarda, kiflənmənin




qarşısını almaq üçün istifadə olunur. Qeyd etmək lazımdır ki, yayda, qışda, bir sözlə, istənilən fəsildə otağın temperaturunun 60-70%-nin qorunub saxlanılmasında mühüm rol oynayır. FasNatural ağlaydan fərqli olaraq su keçirmir, şaxtaya davamlıdır, yəni -55°C-də çatlamır, müqaviməti təbii daşdan yüksəkdir.

FasNaturalın üstünlükləri bununla yekunlaşmır. Bu məhsulun ağlaydan ən böyük üstünlüyü binanın və evin yükünü 11 dəfəyə qədər azaltması, eyni zamanda, tikilinin ömrünü uzatmasıdır. FasNatural məhsulunun tikilinin ömrü qədər yaşı var. Bu unikal məhsul nəmişliyin qarşısını 100% almaqla yanaşı, otağın təbii hava, bol oksigenlə təmin olunmasına şərait yaradır. İstifadə zamanı toz yaranmır. Bu isə o deməkdir ki, allergiya təhlükəsi də yoxdur. Elastikliyə malik FasNatural məhsulunun nə çatlamaq, nə də yanmaq təhlükəsi var.

Paytaxtımızda FasNatural məhsulu istifadə olunmaqla bərpa edilən, abadlaşdırılan obyektlər kifayət qədərdir. Buna misal olaraq Milli Dram teatrının üzlənmə və bərpa işlərini, Səadət Sarayında fasad və daxili detalların işlənib hazırlanmasını, Dövlət Ekologiya postunun fasadını, Mərdəkanda Polis Akademiyasının tədris korpusunun girişini, Nəsimi rayon İqtisad məhkəməsinin fasadını, Şpris zavodunun fasadını və s. qeyd edə bilərik.Kifayət qədər müştəri rəğbəti qazanmış FasNatural məhsulu "Mətanət A" şirkətinin digər strateji məhsulları ilə yanaşı, hazırda Rusiya və digər MDB dövlətlərinə ixrac olunmaqdadır. FasNatural gələcəyinizin rahatlıq təminatıdır.